ZÜMRÜD QAŞLI KƏLBƏCƏR

2020-ci il noyabrın 25-i Azərbaycan tarixinə dilbər guşələrimizdən olan Kəlbəcərin erməni işğalından azad edildiyi gün kimi yazılıb...

"Allah Kəlbəcərə hər cür nemətlər - gözəl təbiət, zəngin sərvətlər veribdir. Kəlbəcər məğrur dağları, gözəl meşələri, otlaqları, çəmənləri, obaları, bulaqları olan, vətənimizin təbiət gözəlliyini özündə əks etdirən bir parçasıdır. Kəlbəcərin həm yeraltı sərvətləri, həm də yerüstü sərvətləri Azərbaycanın milli sərvətlərinin bir hissəsidir".

Heydər ƏLİYEV,
Ümummilli Lider.

Azərbaycan xalqı Kəlbəcər Şəhəri Gününü misilsiz qələbə sevinci, yüksək fəxarət duyğuları, hədsiz fərəh, qürur, iftixar hissləri ilə qeyd edir. Bu tarixi Qələbə ilə Qalib Sərkərdə, Müzəffər Ali Baş Komandan, ölkə Prezidenti cənab İlham Əliyev həlli mümkünsüz görünən problemi həll etdi. Məhz liderin uzaqgörən siyasəti nəticəsində ilk dəfə idi ki, xalqımız tarixdə son iki əsrlik dövr ərzində qalibiyyəti yaşadı, dövlətçiliyini qorudu və ərazi bütövlüyünü bərpa etdi. Cənab İlham Əliyev ideal liderlik nümunəsi göstərərək, öz xalqı və dövləti naminə əzmli və qətiyyətli olmağın, nə olur-olsun öz haqlı və prinsipial mövqeyindən, ali məqsədlərindən əsla geri dönməməyin düsturunu yaratdı.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə Ordumuzun şanlı Zəfəri Ermənistanı kapitulyasiya aktını imzalamağa və əraziləri boşaltmağa məcbur etdi. Beləliklə, Kəlbəcər və Laçın rayonları, Ağdam rayonunun işğal altında qalan hissəsi bir güllə atılmadan mərhələli şəkildə Azərbaycana təhvil verildi. Üçtərəfli Bəyanata əsasən, 2020-ci il noyabrın 25-də Kəlbəcər şəhəri də daxil olmaqla, rayonun 147 yaşayış məntəqəsi işğaldan azad edildi. Ali Baş Komandan İlham Əliyevin vurğuladığı kimi, "Zəfər adı xalqımıza çox yaraşır... Bu Qələbə bizim xalqımıza yaraşır, igid oğullarımıza yaraşır, dövlətimizə yaraşır". Kəlbəcərdə erməni vəhşiliyinə nəzər yetirək: 1993-cü il aprelin 2-də Kəlbəcərin işğal nəticəsində 511 dinc sakin öldürülmüş, 321 nəfər əsir götürülmüş və itkin düşmüşdü. İşğalçılar onlarla tarixi-mədəniyyət abidəsini, 97 məktəbi, 9 uşaq bağçasını, 116 kitabxananı, 43 klubu, 42 mədəniyyət evini, tarix-diyarşünaslıq muzeyini, 9 xəstəxananı, 75 tibb məntəqəsini, 23 ambulatoriyanı, 9 apteki, yüzlərlə inzibati binanı, minlərlə evi, çoxlu sayda texnikanı talan edib, dağıdıb və rayonun külli miqdarda sərvətini Ermənistana daşıyıblar. Ölkə Prezidenti Kəlbəcərə səfəri zamanı bildirmişdir ki, "Baxın, görün, şəhər ermənilər tərəfindən tamamilə dağıdılmışdır. Vəhşi ermənilər başqa şəhər və kəndlərimiz kimi, Kəlbəcəri də dağıdıblar. Bütün binalar dağıdılıb. Bəzi binalarda ermənilər qanunsuz yaşayırdılar. Buradan çıxanda o binaları da yandırıb, sökdülər. Vaxt dəyişir, amma erməni faşizminin eybəcər sifəti dəyişmir. 1990-cı illərin əvvəllərində bu torpaqları işğal edərkən bizim şəhər və kəndlərimizi dağıtmışdılar. 2020-ci ildə biz bunları buradan qovanda da gedə-getdə ağacları kəsib, yandırıb, binaları dağıdıblar". Günahsız əli-ayağı yalın olan insanlar öz dədə-baba torpağından vəhşicəsinə, zorakılıqla qovularaq, dağ yolları ilə, erməni təcavüzkarlarından güc-bəla ilə xilas olublar, çoxu isə qırğına məruz qalıb, onlara divan tutulub, meyitləri təhqir edilib. Ümumən Kəlbəcərdə 500-dən artıq dinc sakin qətlə yetirilib, yüzlərlə insan girov götürülüb və ya itkin düşüb. Əhali işğal zamanı özü ilə heç nə götürə bilməyib, sakinlərin bütün əmlakı erməni işğalçıları tərəfindən qarət olunub.

Baş verənlər həm də Azərbaycan və Ermənistan arasındakı fərqi açıq-aydın göstərir. Belə ki, Azərbaycan torpaqlarını tərk edən ermənilər təhlükəsiz şəkildə, atəşə məruz qalmadan, rahatlıqla, hətta sərhədçilər tərəfindən yol azuqələrini qəbul edərək, bütün əşyalarını götürüb çıxmışlar. Bəli, bax budur əsl insanlıq nümunəsi… Ölkə Prezidenti cənab İlham Əliyev 2021-ci il avqustun 16-da Kəlbəcər şəhərində böyük qürur hissi ilə Azərbaycanın Dövlət Bayrağını ucaltdı və bildirdi: "Ermənilər 30 il ərzində bizim torpaqlarımızı ancaq istismar edirdi, təbii sərvətləri talayırdı, evləri dağıdırdı, sökürdü. Sonra da deyirdi ki, bura erməni torpağıdır. Bura heç vaxt erməni torpağı olmayıb və bundan sonra heç vaxt olmayacaq. Bu, Azərbaycan torpağıdır. Biz azərbaycanlılar - bu torpaqların sahibləri qayıtmışıq. Düşməni torpağımızdan qovaraq, ordusunu məhv edərək, qəhrəmanlıq, fədakarlıq göstərərək qayıtmışıq". Qeyd edək ki, Kəlbəcər rayonunda 968 hektar ərazini əhatə edən "Qırmızı kitab"a daxil edilmiş ayıfındığı ağacları da kütləvi şəkildə qırılıb. Qana susamış erməni vandalları sanki bizim qalibiyyətimizi sinirə bilməyərək heyfini ağaclardan almışlar. Azərbaycanın işğal olunmuş ərazilərində ekoloji əhəmiyyətə malik 7 relikt göl, o cümlədən Kəlbəcər və Laçın rayonlarının yaylaqlarında Böyük Alagöl, Kiçik Alagöl, Zalxagöl, Qaragöl, Canlıgöl, İşıqlı Qaragöl ciddi antropogen təsirə məruz qalıb. Rayonun ərazisində faydalı qazıntılarla zəngin olan qızıl, gümüş, mis, xrom, civə, böyük ehtiyatlara malik əlvan və üzlük daşlar, inşaat materialları yataqları dağıdılaraq viran olunub. Təbii sərvətləri - sənaye əhəmiyyətli ehtiyatları 112,5 tondan çox olan Söyüdlü (Zod) və ehtiyatları 13 tondan çox olan Ağduzdağ və Tutxun qızıl yataqları uzun illər Ermənistan tərəfindən talan edilib.

Kəlbəcər zəngin təbii sərvətlərə və gözəl füsunkar təbiətə, mədəni irsə malik bir diyardır. Rayonun əlverişli relyefi, saf dağ iqlimi, mineral suları, o cümlədən Yuxarı İstisu, Aşağı İstisu kimi müalicəvi təsirə malik mineral su yataqları burada turizmin inkişafı üçün geniş imkanlar yaradır. Bura turistlərdə maraq yarada biləcək bir çox tarixi abidələrlə zəngindir. Qədim yaşayış məskənləri, 6 min il yaşı olan qaya təsvirləri, qədim türk əlifbası nümunələri mövcuddur. Daş abidələr Şimali Azərbaycanda erkən dövr türklüyün, atəşpərəstliyin, xristianlığın, VII əsrdən isə İslamın yayıldığı dövrlərin yadigarlarıdır. Bu gün respublikamızın bütün işğaldan azad olunmuş ərazilərində sürətli bərpa-quruculuq həyata keçirilir, sakinlərin öz doğma yurdlarında rahat yaşayışının təmin edilməsi üçün maksimum şərait yaradılır. Ölkə Prezidentinin diqqət və nəzarəti altında Kəlbəcərdə də yüksək sürətlə infrastruktur layihələr gerçəkləşdirilir, əhəmiyyətli iri obyektlərin bünövrəsi qoyulur. Həmçinin dövlət sərhədlərimizin toxunulmazlığı, vətəndaşlarımızın təhlükəsizliyinin təmin olunması üçün mühüm tədbirlər görülmüşdür. Həmin layihələr sırasında Toğanalı-Kəlbəcər avtomobil yolunun inşası xüsusi əhəmiyyət kəsb edir. Göygöl və Kəlbəcər rayonlarını birləşdirən bu yolun uzunluğu 80,7 kilometrdir. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın 2021-ci ilin avqustun 16-da Kəlbəcər rayonuna səfəri zamanı Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində - Murovdağda inşa olunacaq tunelin təməli qoyulub. Ölkə Prezidenti Kəlbəcər şəhərinin Baş planı ilə tanış olub. Səfər çərçivəsində 110/35/10 kilovoltluq "Kəlbəcər" yarımstansiyasının, bir neçə kiçik su elektrik stansiyasının və Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin açılışı olub. Həmçinin Kəlbəcər-Laçın avtomobil yolu üzərində 3,4 kilometr uzunluğundakı tunelin, Kəlbəcər İşğal və Zəfər muzeyləri kompleksinin, Kəlbəcər Rəqəmsal İdarəetmə Mərkəzinin, rayondakı su istehsalı zavodunun, "İstisu" sanatoriyasının tikintisi davam edir. Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 2-də Kəlbəcər rayonunda "İstisu" Müalicə-İstirahət Kompleksində aparılan tikinti ilə tanış olarkən bildirilib ki, 1927-ci ildə fəaliyyətə başlayan bu sanatoriya keçmiş ittifaq əhəmiyyətli ikinci böyük kurort hesab edilirdi. Kompleksin ərazisində üç yataq korpusu, bir müalicəvi vanna xidməti binası, bir poliklinika korpusu fəaliyyət göstərirdi. Sovet dönəmində bu kurort-sanatoriya kompleksi ildə 50 min nəfəri qəbul etmək imkanına malik olub. Buraya əsasən həzm sistemi xəstəliklərinin müalicəsi üçün müraciətlər edilirdi. Bərpa edilən "İstisu" Müalicə-İstirahət Kompleksinin ümumi sahəsi 32 min kvadratmetr olacaq. Kompleksdə 145 nömrə, eləcə də 10 kottec yaradılacaq, SPA mərkəzində termal hamam, müalicəvi vanna, həkim otağı, o cümlədən müxtəlif müalicəvi hovuzlar, prosedur otaqları, təzyiqli su terapiyası, masaj, buxar, duz otaqları, istirahət zonaları və gözəllik salonu mövcud olacaq. Burada müxtəlif iaşə obyektləri - qonaqlara xidmət göstərəcək. "Aşağı İstisu" mənbəyindən alman mütəxəssislər tərəfindən nümunələr götürülüb, suyun analizi və testi həyata keçirilib. Qeyd edək ki, aparılan analizlər və balneoloji rəylərə əsasən, İstisu təbii mineral suyu fizioloji, metabolik və müalicəvi təsirlərə malikdir. Müzəffər Ali Baş Komandan İlham Əliyev səfər çərçivəsində, həmçinin komando hərbi hissəsinə döyüş bayrağını təqdim edərkən bildirmişdir ki, "Bu gün bu hərbi hissənin açılması bir daha göstərir ki, biz istədiyimizə nail olacağıq - Qarabağı və Şərqi Zəngəzuru bərpa edəcəyik. Artıq bu proses başlamışdır və ilk növbədə, bu bölgədə - Qarabağda və Şərqi Zəngəzurda bizim hərbi gücümüz daim möhkəm olmalıdır. Ona görə bugünkü mərasim xüsusi məna daşıyır, rəmzi məna daşıyır". Bəli, qazandığımız Zəfərlə ərazi bütövlüyümüzün bərpa olunması, işğaldan azad edilmiş torpaqlarımızın iqtisadiyyata reinteqrasiyası ümumilikdə ölkəmizin inklüziv və dayanıqlı inkişafı üçün yeni üfüqlər açıb... **Ağsaqqal Adil Murtuzayev** böyük fəxarət hissi ilə bildirdi ki, "biz kəlbəcərlilər ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevə və onun rəhbərliyi ilə şücaət göstərən cəsur Azərbaycan Ordusuna ömrü boyu minnətdarıq. Yüz illər ərzində xalqımızın həsrətində olduğu qalibiyyəti, zəfəri bizə bəxş etdilər... Qürurumuzu özümüzə, Qarabağımızı Azərbaycana qaytardılar... Torpaqları işğal edilən xalqı, Qalib Xalqa çevirdilər... 44 günlük müharibədən sonra başqa bir Azərbaycan olduq! Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Şanlı Ordumuz xalqımızın tarixinə elə bir imza, möhür vurdu ki, min illər sonra da əbədiyyətə qədər yaşayacaq. Artıq bu gün biz qalib, başıdik, alnıaçıq Azərbaycan vətəndaşıyıq. Azərbaycan xalqı bir daha əmin oldu ki, gələcəyə İlhamla daha iri addımlar atacağıq".

Dilbər guşələrdən olan zümrüd qaşlı Kəlbəcər rayonunda aparılan nəhəng abadlıq-quruculuq bu diyarın gözəl gələcəyindən, tərəqqisindən, azad olunmuş ərazilərə Böyük Qayıdışın uğurundan xəbər verir.

Zabit XƏLİLOV,
"Respublika".